# HÜSEYNOV ELMAN SÜLEYMAN OĞLU



28 fevral 1952-ci ildə Tərtər rayonunun İlxıçılar kəndində dünyaya göz açmışdır. 1968-ci ildə Qaraqoyunlu kənd orta məktəbini bitirmişdir. Elə həmin il Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1973-cü ildə institutu bitirərək zabit kimi Gürcüstana hərbi xidmətə göndərilmişdir. 1975-ci ildə ordudan tərxis olunduqdan sonra doğma rayonuna qayıtmışdır. 1980-1982-ci illərdə Bakı Ali Partiya Məktəbində təhsil almışdır. 1982-1985-ci illərdə Tərtər rayon Xalq Nəzarəti Komitəsinin sədri, 1985-1988-ci illərdə Tərtər rayon Xalq Deputatları İcraiyyə Komitəsi sədrinin birinci müavini, 1988-1990-cı illərdə Tərtərçay hidroqovşağı İstismar İdarəsinin rəisi, sonra isə rayon Partiya Komitəsində təlimatçı vəzifələrində çalışmışdır. Dəfələrlə rayon sovetinə deputat seçilmişdir. Nazirlər Kabineti nəzdində Xalq Təsərüffatını İdarəetmə İnstitunu fərqlənmə diplomu ilə bitirmişdir. 1991-ci ildə yüksək dövlət vəzifələrində işləməsinə baxmayaraq könüllü olaraq Tərtərin müdafiəsi üçün tabor yaradılması ilə bağlı Müdafiə Nazirliyinə müraciət etmiş, 1991-ci ilin sentyabrında Tərtər özünümüdafiə qərərgahının rəisi, 1991-ci ilin noyabrında Tərtər ərazi özünümüdafiə batalyonunun komandiri təyin olunmuşdur. Ağdərə, Seysulan, Yarımca, Həsənqaya, Ortakənd, Qıldıran və digər kəndlərin ermənilərdən təmizlənməsi uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşmuşdur. Şəxsi rəhbərliyi altında keçirilmiş döyüş əməliyyatları nəticəsində düşmənin xeyli canlı qüvvəsi və texnikası məhv edilmişdir. 1993-cü il yanvarın 14-də cəsur komandir Vəng kəndinin düşməndən azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Tərtər rayonunun Qaraqoyunlu kəndində dəfn edilmişdir. Evli idi. Bir oğlu, iki qızı var. Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə mayor Hüseynov Elman Süleyman oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Tərtərdəki küçələrdən biri onun adını daşıyır və şəhərdə büstü qoyulmuşdur.